**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280; Azərbaycan Respublikasının 29 noyabr tarixli 72-VIIQD, 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD nömrəli və 29 dekabr tarixli 118-VIIQD nömrəli qanunları) 606.2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 606.2.1-ci maddəyə “vətəndaşlar” sözündən sonra “(müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla)” sözləri əlavə edilsin;

1.2. 606.2.2-ci maddəyə “hərbi vəzifəlilər” sözlərindən sonra “(müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilər istisna olmaqla)” sözləri əlavə edilsin.

**Maddə 2.** “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 683 (Cild I); 2024, № 2, maddə 132, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli və 27 dekabr tarixli 111-VIIQD nömrəli qanunları) 17.4-cü maddəsində “uçotunda” sözü “qeydiyyatında” sözü ilə əvəz edilsin.

**Maddə 3.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363; Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 64-VIIQD nömrəli, 10 dekabr tarixli 84-VIIQD nömrəli və 27 dekabr tarixli 111-VIIQD nömrəli qanunları) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 8.3-cü maddəyə “barədə” sözündən sonra “onların hərbi qeydiyyatda olduğu” sözləri əlavə edilsin;

3.2. 8.4-cü maddəyə “başlanılmış” sözündən sonra “hərbi vəzifəlilərə və” sözləri, “onların” sözündən sonra “hərbi” sözü əlavə edilsin;

3.3. 8.5-ci maddəyə “barədə” sözündən sonra “onların hərbi qeydiyyatda olduğu” sözləri əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2025-ci il
№ 138-VIIQD